# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU

**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Elmin İnkişafı Fondunun**
**Gənc alim və mütəxəssislərin 3-cü qrant müsabiqəsinin**
**(EİF/GAM-3-2014-6(21)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

## YEKUN ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **XX əsrdə Qafqazda yaşayan türk xalqlarının mədəniyyətinə qarşı törədilmiş soyqırım**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Əliyeva Pərvanə Əli qızı**
Qrantın məbləği: **8 000 manat**
Layihənin nömrəsi: **EİF/GAM-3-2014-6(21)-24/21/5-M-05**
Müqavilənin imzalanma tarixi: **27 noyabr 2015-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 yanvar 2016-cı il – 01 yanvar 2017-ci il**
Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır
Diqqət! Uyğun məlumat olmadığı təqdirdə müvafiq bölmə boş buraxılır

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| 1 | Layihənin həyata keçirilməsi üzrə yerinə yetirilmiş işlər, istifadə olunmuş üsul və yanaşmalar |
| | Layihənin yerinə yetirilməsi zamanı əsasən kulturoloji təhlil üsuldan istifadət olunmuşdur. Hər bir xalqın, milli mədəniyyətin soyqırım haqqında öz fərqli təsəvvürləri, anlayışları vardır. Bəzən bunlar bir-birindən xeyli dərəcədə fərqlənə bilər. Ona görə də müasir cəmiyyətdə soyqırım anlayışı birmənalı qarşılanmayıb, milli və məhəlli xüsusiyyətlərə görə müxtəlif anlamlarda qəbul edilir. Bütün bunların fərdi qaydada nəzərdən keçirilməsi, müxtəlif xalqların və mədəniyyətlərin soyqırım fenomeninə olan baxışlarının kulturoloji aspektdə təhlil olunması və ümumi nəticələrə gəlinməsi işin elmi yeniliyinin əsas metodoloji prinsiplərindən hesab edilə bilər. Layihə üzrə hesabat ili ərzində dörd mərhələdə iş aparılmışdı. Nəzərdə tutulmuş I mərhələ "Soyqırım (genosid) anlayışına tarixi baxış" tam icra edilmişdir. Bu hissədə soyqırım, genosid, holokost, qolodomor, gendersidi və s. anlayışlara nəzəri baxış keçirilmiş, təhlil edilərək mövzu ilə bağlı ümumi vəziyyətin aydın mənzərəsi göstərilmişdir. Mövzu üzrə dünya problemi nöqteyi-nəzərindən soyqırım hadisəsinin açıqlanması üzrə nəzəri materiallar toplanmış, bölmələr üzrə mətnlər qismən hazırlanmışdır. Materialların toplanmasında əsas vurğu bəşər |

tarixində soyqırım aktının üzə çıxarılmasına yönəlmişdir. Materiallar üzərində işləyərkən diqqətim soyqırımın tarixi, dini, coğrafi, milli və siyasi köklərinə də yönəldilmişdir.

Layihə üzrə II mərhələdə nəzərdə tutulmuş "1900-1920-ci illərdə Qafqazda türk xalqlarına qarşı törədilən soyqırım" tam icra edilmişdir. Bu hissədə XX əsrin əvvəlində Qafqazda türk xalqlarına qarşı soyqırım və deportasiya aktlarına nəzəri baxış keçirilmiş, bu dövrün hadisələri təhlil edilərək ümumi vəziyyətin aydın mənzərəsi göstərilmişdir. Mövzu üzrə 1900-1920-ci illərdə Qafqazda baş verən soyqırım hadisəsinin açıqlanması üzrə nəzəri materiallar toplanmış, bölmələr üzrə mətnlər hazırlanmışdır. Materialların toplanmasında əsas vurğu bəşər tarixində soyqırım aktının üzə çıxarılmasına yönəlmişdir. Məqsəd bu dövrdə törədilən faciələrin tarixi şəraitinin düzgün mənzərəsini göstərmək, hadisə barədə tarixi faktları müəyyən edərək təhlil etmək olmuşdur. Bu hissədə aşağıdakı məsələləri araşdırmağa calışmışam.

1. XX əsrin əvvəlində baş verən hadisələrin səbəbinin öyrənilməsi.
2. Hadisəyə səbəb olan tarixi şəraitin analizi.
3. Hadisə ilə bağlı dövri mətbuatda gedən məqalələrin və yazıların təhlili.
4. O dövrki hakimiyyətin hadisələrə müdaxilə etməsi məsələsinin təhlili.

Araşdırmalar onu göstərdi ki, hələ XX əsrin əvvəlində türk xalqının mədəni irsini, tarix-mədəniyyət abidələrini ya dağıdaraq izlərini silməsi, ya da onları qeyri-türk abidələri adı altında saxtalaşdıraraq mədəni irsə qarşı törədilən soyqırımlardan olmuşdur.

Layihə üzrə üçüncü mərhələ "1920-1988-ci illərdə Qafqazda türk xalqlarına qarşı deportasiya aktları" tam icra edilmişdir. Bu hissədə xüsusən ikinci Dünya müharibəsi dövründə Qafqazda türk xalqlarına qarşı törədilmiş deportasiya aktlarına nəzəri baxış keçirilmiş, bu dövrün hadisələri təhlil edilərək səbəbləri və aydın mənzərəsi göstərilmişdir. Mərhələ üzrə icra edilən hissədə, baş verən deportasiya hadisələrinin açıqlanması üçün nəzəri materiallar toplanmış, bölmələr üzrə mətnlər hazırlanmışdır. Materiallar üzərində işləyərkən xüsusilə II dünya müharibəsi illərində və ondan sonrakı illərdə Qafqazda yaşayan türk xalqlarının deportasiya tarixi diqqətimi çəkmişdir.

Deportasiya bütöv bir xalqı elindən-obasından, yurd-yuvasından elliklə sürgünə məruz qoyan faciədir. Bütövlükdə bu dövr ərzində milli mənsubiyatinə görə onlarla xalq sürgün edilmişdi: azərbaycanlılar, qaraçaylar, kalmıklar, çeçenlər, inquşlar, malkarlar, krım tatarları və ahıska türkləri. Bəzi xalqlar hətta SSRİ xəritəsindən silinib, onlara sistematik şəkildə elə fiziki və mənəvi şərtlər qoyulurdu ki, bu şərtlər onları məhv etməyə aparırdı. Onlara öz dillərində danışmaq, yazmaq, müraciət etməyə qadağan edilmişdi. Bu xalqları məhv etmək, yer üzündən silmək məqsədilə uşaqları sənət alarkən onların valideynlərinin razılığı ilə milliyətini dəyişdirirdilər. Gələcəkdə hətta ata və ananın türk olmasına baxmayaraq onların uşaqlarına başqa Respublikada türk yazılmasına qadağan edilmişdi. Növbəti siyahıya almada lazımı nəticəni əldə edirdilər. Beləliklə, "lazımsız" xalqların sayının azalması göz qabağında artırdı. Həqiqətdə isə bu xalqlar milliyəti türk olduqlarına görə etnosidə məruz qalaraq deportasiya olunurdular.

Araşdırmalar onu göstərir ki, hələ 1937-ci ilin payızında Ermənistanda güclənən repressiyaların dalğasının fonunda azərbaycanlılar daha ağır zərbə almışdılar. "Xalq düşmənləri"ni, casusları ifşa etmək məqsədilə A.Mikoyan, N.Yejov və L.Beriya Ermənistana gəlmişdilər. Mikoyanın rejissorluğu ilə keçirilən «təmizlənmə» prossesində Moskvaya belə məlumat vermişdilər ki, Ermənistanda Araz və yuxarı Arpaçay boylarında yaşayan azərbaycanlılar guya elliklə Türkiyəyə keçmək fikrindədirlər. Ona görə də həmin ilin payızında və 1938-ci ilin yazında Vedibasar, Zəngibasar, Qəmərli, Eçmiədzin, Hoktemberyan və Ağbaba rayonlarının Türkiyə ilə həmsərhəd kəndlərində yaşayan on minlərlə azərbaycanlılar kütləvi surətdə repressiyaya məruz qaldılar. Minlərlə ailə sürgün edildi.

Ahısqa türkləri də bu həqiqətləri yaşamış, lakin digər xalqlardan fərqli olaraq hələ də doğma torpaqlarına qayıda bilməmiş, bir torpaqdan o biri torpağa atılmışlar. 1930-cu illərdə İ.Stalinin dəstəyi ilə gürcü şovinizmi güclənməyə başladı. Türklərin böyük bölümünün soyadı gürcüləşdi.

1938-ci ildə Sovet konstitusiyasının qəbulundan sonra ahıskalıların pasportlarına Azərbaycan milləti yazıldı, dilləri isə Azərbaycan dili oldu. 1940-cı ildən sonra ahısqalıların rəsmi dili gürcü dili oldu. Bununla kifayətlənməyən keçmiş SSRİ hakimiyyəti 1944 ilin noyabr ayında Cənubi Gürcüstanın beş rayonundan; Akalsix, Adıgen, Aspinza, Axalkalakı, Bağdanov rayonlarından, ahıska türklərini qonşu türk mənşəli xalqlarla birlikdə səbəb göstərmədən Qazaxstana və orta Asiyaya deportasiya etmişdilər. Bu vandalizm aktın səbəbi nədir, sualına belə cavab olurdu "bu sərhədlərin təhlükəsizlik məqsədilə edilir". Bu hadisələr o vaxt baş verirdi ki, alman qoşunları Rusiyanın Qərb sərhədlərinə atılmışdı, Türkiyə isə neytral vəziyyətdə idi, bizə qarşı heç bir mübarizə aparmırdı. Kəşviyyat orqanlarının məlumatına əsasən bizim sərhədlərin yaxınlığında heç bir türk ordusu toplusu yox idi. əksinə 1939-cu il SSRİ və Almaniya arasında bağlanmış sazişdən sonra Türkiyə bizimlə ittifaq bağlamaq təklif etdi, ancaq SSRİ etiraz etdi, çünki Almaniya ilə bağlanmış müqavilədə deyilirdi: SSRİ Almanlarla nə dost nə də düşmən dövlətlərlə ittifaq bağlaya bilməz.

Dördüncü mərhələdə nəzərdə tutulmuş "XX əsrin sonu azərbaycanlıların kütləvi deportasiyası, soyqırım və vandalizm aktları" tam icra edilmişdir. Bu hissədə XX əsrin sonundan başlayaraq 1988-ci ildə Ermənistan Respublikasından, 1989-cu ildə Gürcüstan Respublikasından azərbaycanlılara qarşı törədilmiş deportasiya aktı etnik təmizləmə, 1988-ci ilin fevralın 28-də Sumqayıt hadisələri, 20 yanvar faciəsi, Xocalı soyqırımı, I Qarabağ müharibəsi və s. hadisələrə nəzəri baxış keçirilmiş, bu dövrün hadisələri təhlil edilərək səbəbləri və aydın mənzərəsi göstərilmişdir. Mərhələ üzrə icra edilən hissədə, baş verən deportasiya hadisələrinin açıqlanması üçün nəzəri materiallar toplanmış, bölmələr üzrə mətnlər hazırlanmışdır. Materiallar üzərində işləyərkən xüsusilə Ermənistanda və Gürcüstanda yaşayan azərbaycanlıların deportasiya tarixi diqqətimi çəkmişdir.

Təəssüf ki, dünyanın bir çox xalqları kimi Azərbaycan xalqı da soyqırım acısını yaşamaqdan yan ötməyib. XX əsrdə xalqımızın başına gətirilən bəlalar, soyqırım və zorakılıq aktları, düşünülmüş deportasiya, etnik təmizləmə siyasəti qanla yazılmış tale payımızın ən acılı-ağrılı səhifələrini təşkil edir. XX əsrin sonunda baş vermiş 20 yanvar faciəsi, Sumqayıt hadisələri, Xocalı soyqırımı və digər qanlı hadisələr tariximizin yaddaşına ədəbi olaraq çökmüşdür. Lakin Azərbaycan xalqı ruhən sınmamış, əyilməmiş, əksinə, mətinlik, qəhrəmanlıq yolu keçərək daha da möhkəmlənmişdir.

XX əsrdə yaşadığımız soyqırımlar ümumbəşəri faciələrin tərkib hissəsidir. Xolokost, Qolodomor, Xirosima kimi 20 yanvar, Xocalı faciələri də tək bir xalqın deyil, bütövlükdə bəşəriyyətin əleyhinə çevrilmiş qanlı cinayətlərdir. Elə buna görə də xalqımız səsini dünya birliyinin səsinə qataraq qətiyyətlə bu cinayətləri törədənlərin ədalətli cəzasının verilməsini tələb edir.

**2** Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (faizlə qiymətləndirməli) 98%

Mövzu üzərində işlərkən aşağıdakı məqsədlərə çatmaq nəzərdə tutulmuşdu:

Soyqırım, deportasiya və vandalizm anlayışlarının ictimai sosial və hüquqi statusuna aydınlıq gətirilməsi, bu fenomenin tarixi köklərinin araşdırılması, onun mədəniyyətdə təcəssüm etdirilməsinin bədii, mənəvi və psixoloji xüsusiyyətlərinin aşkar olunması:

Müasir Azərbaycan mədəniyyətində aktual mövzularından biri kimi dəyərləndirilən soyqırım mövzusunun əhatəli elmi və təfsirinin verilməsi:

Bədii əsərlərin təhlili və təqdim edilməsi vasitəsilə dünya birliyinin diqqətinin Qarabağ faciələrinə, Azərbaycan həqiqətlərinə yönəldilməsi:

Milli-mənəvi dəyərlərimizə qarşı yönəlmiş soyqırımın ifşa olunması, memarlıq abidələrimizin dağıdılmasına, tarixin saxtalaşdırılmasına qarşı dünya birliyinin dəstəyinin təmin edilməsi:

Müstəqillik dövrü Azərbaycan mədəniyyət tarixinin aktual problemlərindən olan Qarabağ mövzusunun sistemli, ardıcıl tədqiq olunması:

Bu məqsədlərə çatmaq üçün müxtəlif mənbələrdən, o cümlədən müasir informasiya

texnologiyalarından bəhrələnməklə geniş material toplanmış, bu mövzuda yazılmış çoxsaylı əsərlər təhlil edilmişdi. Layihə üzrə işlərkən Qafqazda türk xalqınının soyqırım və repressiyalara məruz qalmış şimali Qafqaz və Gürcüstan Respublikasında elmi ezamiyyətdə olmuşam. Ezamiyyə zamanı kitabxana, muzey və arxivlərdən material toplanmış və həmin materiallardan tədqiqat zamanı istifadə edilmişdir.

3 Hesabat dövründə alınmış **elmi nəticələr** (onların yenilik dərəcəsi, elmi və təcrübi əhəmiyyəti, nəticələrin istifadəsi və tətbiqi mümkün olan sahələr aydın şəkildə göstərilməlidir)

XX əsrdə Qafqazda yaşayan türk xalqlarının mədəniyyətinə qarşı törədilmiş soyqırım mövzusu kulturoloji aspektdə ilk dəfə olaraq tədqiq olunur. I hissənin qarşısında qoyulmuş problem yekunlaşdırılmışdı. Soyqırım, genosid, holokost, qolodomor və s. ifadələrin tarixi hadisələrlə əlaqəli zəruri yaranması və bu terminlərin elmi anlayışa daxil edilməsi faktları təhlil edilərək ümumiləşdirilmişdir. Soyqırım (genosid) anlayışı tarixi hadisə kimi açıqlanmış, soyqırım fenomeninin cinayət-hüquqi xarakteristikası verilmişdir. İlk dəfə olaraq Qafqazda yaşayan türk xalqlarının soyqırım mövzusunun təcəssümünə aid materiallar ümumiləşdirilmiş, XX əsrdə bu xalqların mədəniyyətlərinə qarşı törədilmiş təcavüzün oxşar və fərqli xüsusiyyətləri aşkar edilmişdi.

Mövzunun əsas elmi yeniliyini Azərbaycan mədəniyyətşünaslığında ilk dəfə olaraq Ahıska, Acar, Malkar, Qumıq, Qaraçay, Noqay xalqlarının mədəniyyətlərinə qarşı törədilmiş faciələrin öyrənilməsini təşkil edir. Təqdim olunan iş bu sahədə ilk sistemli tədqiqatdır. Bundan başqa, mövzu üzrə digər müəlliflərin əsərlərinin də təhlili aparılmış və ümumiləşdirilmişdir, bu da öz növbəsində elmi yenilik kimi dəyərləndirilə bilər.

Mövzunun əsas elmi yeniliyini Azərbaycan mədəniyyətşünaslığında ilk dəfə olaraq Ahıska və Şimali Qafqazda yaşayan türk xalqlarının mədəniyyətinin öyrənilməsi təşkil edir. Bu vaxta qədər milli mədəniyyətşünaslıqda türk xalqlarına qarşı soyqırım, deportasiya və vandalizm aktı öz əksini tapmayıb. Təqdim olunan iş bu sahədə ilk sistemli tədqiqatdır.

Mədəni irsə qarşı törədilən soyqırım nəticəsində talan və məhv edilmiş sərvətlər nəinki Azərbaycanın, həm də bütün dünya sivilizasiyasının misilsiz mədəniyyət nümunələridir. Bu səbəbdən tarixi faktlara, mənbələrə əsaslanaraq məhv və falsifikasiya edilmiş tarix-mədəniyyət abidələrinin siyahıya alınmasını və gələcəkdə nəşr edilməsini yenilik hesab etmək olar.

Azərbaycan mədəniyyətində soyqırım mövzusunun kulturoloji təhlili verilməklə onun milli-vətənpərvərlik ruhunda, xalqın qan yaddaşının qorunub saxlanması və gənc nəslə ötürülməsi kontekstində işıqlandırılması:

Soyqırım fenomeninin sosial-hüquqi və ictimai xarakter daşıyan mahiyyətinin mədəniyyətşünaslıq elmi ilə əlaqələndirilməsi, tarixi faktları təcəssüm etdirən incəsənət nümunələrinin əhatəli müstəvidə təfsir olunması:

Azərbaycan mədəniyyətində soyqırım mövzusunun vahid elmi mövzu üzərində tədqiqi və ümumi metodlar tətbiq edilməklə qarşılıqlı təhlil edilməsi:

Tətbiqi mümkün olan sahələr kulturologiya, sənətşünaslıq, etnoqrafiya, tarix.

4 Layihə üzrə **elmi nəşrlər** (elmi jurnallarda məqalələr, monoqrafiyalar, icmallar, konfrans materiallarında məqalələr, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə, uyğun məlumat - jurnalın adı, nömrəsi, cildi, səhifələri, nəşriyyat, indeksi, İmpact Factor, həmmüəlliflər və s. bunun kimi məlumatlar - ciddi şəkildə dəqiq olaraq göstərilməlidir) *(surətlərini kağız üzərində və CD şəklində əlavə etməli!)*

1. XX əsrin sonunda Azərbaycan xalqının mədəni irsinə qarşı törədilmiş soyqırım // Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920). S.490-492. Bakı 2016
2. Erməni vandalların türk xalqına qarşı törətdikləri cinayət əməllərinə kulturoloji baxış. İncəsənət və Mədəniyyət problemləri, Beynəlxalq elmi jurnal № 1(55), AMEA Memarlıq və İncəsənət İnstitutu. s.39-44. Bakı 2016
3. XX əsrin əvvəlində Bakıda törədilmiş kütləvi qətliamlar zamanı tarixi abidələrimiz.

Xəbərlər jurnalı, //AMEA Humanitar elmlər seriyası.(çapdadır)

4. Mədəni-mənəvi irsimizin məhv edilməsi və erməni terroru //Mədəniyyət.az jurnalı.(çapdadır)
5. II Dünya müharibəsi dövründə Qafqazda türk xalqlarına qarşı deportasiya aktı. //Sivilizasiya jurnalı. s. 59-65, Bakı 2016
6. Azərbaycanda multikulturalizm və işğal olunmuş ərazilər. // "Gəncə Avropa Gənclər paytaxtı-2016"ya həsr olunmuş Gənc alim və mütəxəsisslərin Beynəlxaq elmi forumun tezisləri. s.302-303. Gəncə 2016
7. Этноцид тюрков на Кавказе //İtalian Science Review ISSN: 2308-832X s.1-4.İtaliya 2016(İtalyan dilində)
8. Müstəqillik dövründə Azərbaycana təcavüz və soyqırım siyasəti. // İncəsənət və mədəniyyət problemləri.№4(58).Bakı 2016 (çapdadır)
9. Xocalı soyqırımı Qərb şahidlərinin gözü ilə.//"Elm və həyat" jurnalı, Bakı 2017(çapdadır)
10. The implementation of ethnic cleansing by armenian nationalists in the caucasus //Makedoniya (çapdadır)
11. Акт этноцида против Азербайджанского народа (rus dilində).

**5** İxtira və patentlər, səmərələşdirici təkliflər

*(burada doldurmalı)*

**6** Layihə üzrə ezamiyyətlər (ezamiyyə baş tutmuş təşkilatın adı, şəhər və ölkə, ezamiyyə tarixləri, həmçinin ezamiyyə vaxtı baş tutmuş müzakirələr, görüşlər, seminarlarda çıxışlar və s. dəqiq göstərilməlidir)

Layihənin icrası ilə əlaqədar olaraq 2016-cı ilin 26-31 oktyabr tarixlərində Rusiya Federasiyasının Stavropol vilayətinin Mineralnıye vodı və Karaçayevo–Çerkessiya Respublikasının Karaçayevsk şəhərində, Universitet və bir neçə kitabxanalarda elmi ezamiyyətdə oldum.

Karaçay-Çərkəz Dövlət Univeresitetinin rektoru cənab Tausoltan Uzdenovla rəsmi görüşdüm. Görüş zamanı Azərbaycan və karaçay xalqların XX əsrdə başlarına gətirilən faciələrdən, məruz qaldıqları soyqırım və deportasiyalardan fikir mübadiləsi apardıq.

Universitetin "Rusiya tarixi" kafedrasının müdiri, tarix elmləri doktoru professor Rustam Beqeulov, "Tarix" fakultəsinin dekanı Marina Kubanova və "Ümumi tarix" kafedrasının müdiri, tarix elmləri namizədi Arasul Bayramukovla yaxından tanış olub, tədqiqat obyekti ilə bağlı bilgilər alınmışdır.

Karaçayevsk şəhərində 2005-ci ildə deportasiya qurbanlarının xatirəsinə ucaldılmış "Qurtuluş məbədi" memorial kompleksi və Üst-Djequta şəhərinin dəmiryol stansiyasını 2007-ci ilin aprel ayının 28-də karaçay-çərkəz xalqının reabilitasiyadan qayıdan ilk eşalonun xatirəsinə açılmış memorial lövhəni ziyarət etdim.

28-30 dekabr 2016-cı il tarixlərdə Gürcüstanın Tbilisi şəhərində, "Milli Azlıqların Hüquqlarının Müdafiəsinin Monitorinq Qrupu"nun baş ofisində və bir neçə kitabxanada elmi ezamiyyətdə oldum.

Təşkilatın sədri cənab Elbrus Məmmədovla rəsmi görüşdüm. E.Məmmədov XX əsrin sonundan başlayaraq Gürcüstan ərazisində Azərbaycanlılara qarşı həyata keçirilən diskriminasiya aktlarından, başlarına gətirilən faciələrdən, məruz qaldıqları təsirdən, xüsusilə, XX əsrdə Ahıska türklərinin yaşadığı acı taleyi haqqında məlumat verdi.

Bunlarla yanaşı E.Məmmədovun vasitəsilə İ.Djavaxişvili adına Tbilisi Dövlət Universitetinin "Qafqazşünaslıq" İnstitutunun professoru tarix elmlər doktoru Marika Cikiya, tarix elmlər doktoru professor Nino Ruxadze və Tarix kafedrasının müəllimi, tarix elmləri doktoru professor Nikolay

| | |
|---|---|
| | Djavaxişvili ilə yaxından tanış olub tədqiqat obyekti ilə bağlı bilgilər ala bildim.<br><br>Tbilisi şəhərində "Azadlıq məbədi" dövlət müstəqilliyi uğrunda həlak olanların xatirəsinə ucalmış abidəni və "9 aprel" hadisələrin qurbanlarının xatirəsinə ucaldılmış memorial kompleksi ziyarət etdim. |
| 7 | Layihə üzrə elmi ekspedisiyalarda iştirak (əgər varsa) |
| | "Quba Soyqırımı Memorial Kompleksi"nə ekspedisiyada iştirak (1 aprel 2016-cı il) |
| 8 | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | 20 aprel 2016-cı il tarixində Polşanın Azərbaycandakı səfirliyinin təşkilatçılığı ilə ikinci dünya müharibəsi illərində yahudi ailələrini faşistlərdən xilas etmiş və onlarla birlikdə məhv edilən polyak ailələri haqqında maraqlı sərgidə iştirak etmişəm. Burada Rusiya və İsrailin Azərbaycandakı səfirləri və digər ictimai-siyasi xadimlərlə görüşüb, söhbət etmək imkanım olmuşdu. |
| 9 | Layihə mövzusu üzrə elmi məruzələr (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s. çıxışlar) (məlumat tam şəkildə göstərilməlidir: a) məruzənin növü: plenar, dəvətli, şifahi və ya divar məruzəsi; b) tədbirin kateqoriyası: ölkədaxili, regional, beynəlxalq) |
| | AMEA Gənc Alim və Mütəxəssislər Şurası tərəfindən təşkil edilmiş Qubada 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş elmi seminarda iştirak (1 aprel 2016-cı il Regional) |
| 10 | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar, komplektləşdirmə məmulatları |
| | *(burada doldurmalı)* |
| 11 | Yerli həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)* |
| 12 | Xarici həmkarlarla əlaqələr |
| | Tausoltan Uzdenov, Rustam Beqeulov, Marina Kubanova, Arasul Bayramukovla, Tatyana Xapçayeva, Elbrus Məmmədov, Marika Cikiya, Nino Ruxadze, Nikolay Djavaxişvili |
| 13 | Layihə mövzusu üzrə kadr hazırlığı (əgər varsa) |
| | *(burada doldurmalı)* |
| 14 | Sərgilərdə iştirak (əgər baş tutubsa) |
| | AMEA Memarlıq və İncəsənət İnstitutu tərəfindən təşkil edilmiş "20 yanvar" və "Xocalı soyqırımı" gününə həsr edilmiş rəsm əsərlərinin sərgisində və "Azərbaycan və Dünya incəsənətində soyqırım mövzusu" kitabının təqdimat mərasimində iştirak etmişəm |
| 15 | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi (əgər baş tutubsa) |
| | *(burada doldurmalı)* |
| 16 | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. (məlumatı tam şəkildə göstərilməlidir) |
| | *(burada doldurmalı)* |

| | |
|---|---|
| **SİFARİŞÇİ:** | **İCRAÇI:** |
| **Elmin İnkişafı Fondu** | |
| **Baş məsləhətçi** | **Layihə rəhbəri** |
| Quliyeva Mülayim Sahib qızı | Əliyeva Pərvanə Əli qızı |
| ____________ | ____________ |
| *(imza)* | *(imza)* |
| "10" yanvar 2017-ci il | "10" yanvar 2017-ci il |

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA

# ELMİN İNKİŞAFI FONDU

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Elmin İnkişafı Fondunun**
**Gənc alim və mütəxəssislərin 3-cü qrant müsabiqəsinin**
**(EİF/GAM-3-2014-6(21)) qalibi olmuş layihənin yerinə**
**yetirilməsi üzrə**

## ALINMIŞ NƏTİCƏLƏRİN ƏMƏLİ (TƏCRÜBİ) HƏYATA KEÇİRİLMƏSİ VƏ LAYİHƏNİN NƏTİCƏLƏRİNDƏN GƏLƏCƏK TƏDQİQATLARDA İSTİFADƏ PERSPEKTİVLƏRİ HAQQINDA MƏLUMAT VƏRƏQİ

**(Qaydalar üzrə Əlavə 16)**

Layihənin adı: **XX əsrdə Qafqazda yaşayan türk xalqlarının mədəniyyətinə qarşı törədilmiş soyqırım**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Əliyeva Pərvanə Əli qızı**
Qrantın məbləği: **8 000 manat**
Layihənin nömrəsi: **EİF/GAM-3-2014-6(21)-24/21/5-M-05**
Müqavilənin imzalanma tarixi: **27 noyabr 2015-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 yanvar 2016-cı il – 01 yanvar 2017-ci il**

### 1. Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi

| | |
|---|---|
| **1** | Layihənin əsas əməli (təcrübi) nəticələri, bu nəticələrin məlum analoqlar ilə müqayisəli xarakteristikası |
| | *(burada doldurmalı)* |
| **2** | Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi haqqında məlumat (istehsalatda tətbiq (tətbiqin aktını əlavə etməli); tədris və təhsildə (nəşr olunmuş elmi əsərlər və s. – təhsil sisteminə tətbiqin aktını əlavə etməli); bağlanmış xarici müqavilələr və ya beynəlxalq layihələr (kimlə bağlanıb, müqavilənin və ya layihənin nömrəsi, adı, tarixi və dəyəri); dövlət proqramlarında (dövlət orqanının adı, qərarın nömrəsi və tarixi); ixtira üçün alınmış |

| | |
|---|---|
| | patentlərdə (patentin nömrəsi, verilmə tarixi, ixtiranın adı); və digərlərində) |
| | tədris və təhsildə |

2. **Layihənin nəticələrindən gələcək tədqiqatlarda istifadə perspektivləri**

| | |
|---|---|
| **1** | Nəticələrin istifadəsi perspektivləri (fundamental, tətbiqi və axtarış-innovasiya yönlü elmi-tədqiqat layihə və proqramlarında; dövlət proqramlarında; dövlət qurumlarının sahə tədqiqat proqramlarında; ixtira və patent üçün verilmiş ərizələrdə; beynəlxalq layihələrdə; və digərlərində) |
| | fundamental, tətbiqi və axtarış-innovasiya yönlü elmi- tədqiqat layihə və proqramlarında |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Baş məsləhətçi**
Quliyeva Mülayim Sahib qızı

_______________
*(imza)*
"10" yanvar 2017-cı il

**İCRAÇI:**

**Layihə rəhbəri**
Əliyeva Pərvanə Əli qızı

_______________
*(imza)*
"10" yanvar 2017-cı il

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Elmin İnkişafı Fondunun**
**Gənc alim və mütəxəssislərin 3-cü qrant müsabiqəsinin**
**(EİF/GAM-3-2014-6(21)) qalibi olmuş layihənin yerinə**
**yetirilməsi üzrə**

## ALINMIŞ ELMİ MƏHSUL HAQQINDA MƏLUMAT
**(Qaydalar üzrə Əlavə 17)**

Layihənin adı: **XX əsrdə Qafqazda yaşayan türk xalqlarının mədəniyyətinə qarşı törədilmiş soyqırım**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Əliyeva Pərvanə Əli qızı**
Qrantın məbləği: **8 000 manat**
Layihənin nömrəsi: **EİF/GAM-3-2014-6(21)-24/21/5-M-05**
Müqavilənin imzalanma tarixi: **27 noyabr 2015-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 yanvar 2016-cı il – 01 yanvar 2017-ci il**
Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır

### 1. Elmi əsərlər (sayı)

| № | Tamlıq dərəcəsi / Elmi məhsulun növü | Dərc olunmuş | Çapa qəbul olunmuş və ya çapda olan | Çapa göndərilmiş |
|---|---|---|---|---|
| 1. | Monoqrafiyalar | | | |
| | həmçinin, xaricdə çap olunmuş | | | |
| 2. | Məqalələr | 5 | 5 | 1 |
| | həmçinin xarici nəşrlərdə | 1 | 1 | 1 |
| 3. | Konfrans materiallarında məqalələr | 2 | | |

| | | | | |
|---|---|---|---|---|
| | O cümlədən, beynəlxalq konfras materiallarında | 2 | | |
| 4. | Məruzələrin tezisləri | 1 | | |
| | həmçinin, beynəlxalq tədbirlərin toplusunda | 1 | | |
| 5. | Digər (icmal, atlas, kataloq və s.) | | | |

## 2. İxtira və patentlər (sayı)

| № | Elmi məhsulun növü | Alınmış | Verilmiş | Ərizəsi verilmiş |
|---|---|---|---|---|
| 1. | Patent, patent almaq üçün ərizə | | | |
| 2. | İxtira | | | |
| 3. | Səmərələşdirici təklif | | | |

## 3. Elmi tədbirlərdə məruzələr (sayı)

| № | Tədbirin adı (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s.) | Tədbirin kateqoriyası (ölkədaxili, regional, beynəlxalq) | Məruzənin növü (plenar, dəvətli, şifahi, divar) | Sayı |
|---|---|---|---|---|
| 1. | Azərbaycan və Şərqi Anadoluda Türk-müsəlman əhaliyə qarşı soyqırım (1914-1920-ci illər) | Beynəlxalq | Dəvətli | 1 |
| 2. | “Gəncə Avropa Gənclər paytaxtı-2016”ya həsr olunmuş “XXI əsrdə dünya elminin inteqrasiya prosesləri” mövzusunda gənc alim və mütəxəssislərin beynəlxalq forumu | Beynəlxalq | Dəvətli | 1 |
| 3. | | | | |

| | |
|---|---|
| **SİFARİŞÇİ:**<br>**Elmin İnkişafı Fondu** | **İCRAÇI:** |
| **Baş məsləhətçi**<br>Quliyeva Mülayim Sahib qızı | **Layihə rəhbəri**<br>Əliyeva Pərvanə Əli qızı |
| ______________<br>*(imza)* | ______________<br>*(imza)* |
| “10” yanvar 2017-cı il | “10” yanvar 2017-cı il |